# BEYNƏLXALQ ƏMƏK TƏŞKİLATI VƏ AZƏRBAYCAN RESPUBLİKASI

**T.T.VƏLİYEV**
*Bakı Dövlət Universiteti*

Azərbaycan Respublikası öz müstəqilliyini qazandıqdan sonra bir çox beynəlxalq təşkilatlara üzv kimi qəbul olmuşdur. Belə təşkilatlardan biri də Beynəlxalq Əmək Təşkilatıdır. Azərbaycan Respublikası Milli Məclisi BƏT-ın bir sıra konvensiyalarını ratifikasiya etmişdir. Həmin konvensiyalar müasir dövrümüzdə əməyin tətbiqi və təşkili sahəsində mühüm əhəmiyyət kəsb edir.

Əvvəla, Beynəlxalq Əmək Təşkilatı (BƏT) çərçivəsində qəbul olunmuş mühüm beynəlxalq sənədlərə nəzər salaq. Qeyd etmək lazımdır ki, BƏT nizamnaməsi özünün proqram əsasnaməsinə malikdir və bu beynəlxalq əmək standartlarının əsas istiqamətini müəyyən edir. BƏT beynəlxalq əməklə bağlı olan problemləri həll etmək üçün müxtəlif konvensiyalar qəbul etmişdir.

BƏT–in normativ fəaliyyətinin əsas məqsədi preambulada əks etdirilib. Bu məqsəd əmək şəraitinin yaxşılaşdırılmasıdır. Əmək şəraitinin yaxşılaşdırılması üçün aşağıdakı metodlardan istifadə olunur: 1) iş saatının tənzimlənməsi; 2) iş həftəsi və günü üçün hədd qoyulması; 3) əmək bazarının tənzimlənməsi və işsizliyin ləğvi; 4) əmək haqqının lazımi səviyyədə olması; 5) peşə xəstəliklərindən və bədbəxt hadisələrdən müdafiə olunma; 6) uşaqların, qadınların, yeniyetmələrin əməyini müdafiə və yaşlıların, əlillərin təmin olunması; 7) miqrasiya olunmuş işçilərin müdafiəsi; 8) həmkarlar ittifaqları yaratmağa şərait yaratmaq və s (1). BƏT nizamnaməsinə əlavə kimi qəbul olunmuş 1944-cü il 10 may Filadelfiya Bəyannaməsində göstərilir ki, BƏT öz öhdəsinə götürür ki, bütün dünya dövlətlərində tam işlə təmin olma və hüquqi səviyyənin yüksəlməsinə, zəhmətkeşlərə öz əməyini bacardığı sahədə istifadə etməyə şərait və imkan yaradacaq. Bundan başqa, əmək haqqı və iş şəraiti barədə söhbətlər aparmaq, imkanı olmayanlar üçün minimum yaşayış həddi təyin etmək, sosial və iqtisadi tədbirlərdə kollektiv iştirak hüququnun təmin olunması.

BƏT nizamnaməsində sosial siyasətin fundamental prinsipləri göstərilir. Bu prinsiplərin məzmunu 1998-ci il 86-cı sessiyada dəqiqləşdirilib. Deklarasiya 4 prinsip üzrə formalaşıb ki, buna da BƏT-ın bütün üzvləri nəzarət etmişdir. Bu prinsiplər birləşmə azadlığı və beynəlxalq müqavilə hüququnu qəbul etmə, məcburi əməyin bütün növlərinin ləğvi, uşaq əməyindən istifadənin ləğvi, əmək və məşğuliyyətdə ayrı-seçkilik qoymamaq.

Bu prinsiplər 7 konvensiyada öz əksini tapmışdır. Bütün dövlətlər üçün 87-ci sessiyada «Assosiasiyaların azadlığı və təşkilatların müdafiə hüququ», 98-ci sessiyada «Təşkilatların və onların kollektiv müqavilələrinin hüququ», 105-cidə «məcburi əməyin ləğvi», 100-cüdə «Bərabər əmək dəyərində bərabər mükafatlandırma», 111-cidə, əmək və məşğulluq sahəsində ayrı-seçkilik», 138-cidə «Aşağı yaş həddində işə qəbul haqqında» (2, s. 3-36). BƏT-ın normativ aktları əmək hüququ problemləri çərçivəsindən çıxır. Onlar sosial siyasət və sosial təminat hüququna da toxunur. Burada işçilərin asudə vaxtı, işçilər üçün yaşayış evlərinin tikilməsi. Onların məişət xidməti, əməyin statistikası, texniki-peşə təhsili, əməyin idarəetməsi üzrə dövlət təşkilat-fəaliyyəti də daxildir.

29-cu konvensiyada (1930-cu il) göstərilir ki, dövlətin vəzifəsidir ki, məcburi əməyin bütün formalarını ən qısa müddətdə ləğv etsin. Qanunsuz olaraq məcburi əməyin istifadə olunması cinayət məsuliyyətinə cəlb olunur. Konvensiya məcburi əməyi belə müəyyən edir: «qorxu və təhdid ilə hər hansı iş və ya xidməti şəxsdən tələb etmək olmaz, yalnız işçi özü könüllü sürətdə öz xidmətini təklif etməlidir».

Konvensiyaya uyğun olaraq bəzi hallarda məcburi əmək qanunidir. Yalnız fəaliyyətin 5 növü aşağıdakı hallarda qanunidir.

- hərbi xidmətlərdə və hərbi xarakterli işlərdə;
- adi vətəndaş borcuna daxil olan iş;
- məhkəmə hökmü tələb olunan, nəzarətçinin və ya dövlət tərəfindən göstərilmiş nəzarəti altında;
- fövqəladə hallarda görülәsi işlər;
- kollektivin xeyri üçün bəzi xırda işlər;

Bəzi hallarda görülə bilən məcburi əmək 29-cu konvensiyaya əsasən bəzi şərtlərlə məhdudlaşır:

- görülən iş (məcburi əmək əsasında) kollektiv üçün birbaşa və vacib əhəmiyyətə malikdir;
- indiki və yaxın vaxt üçün yüksək əhəmiyyətlidir;
- belə işlər üçün könüllü işçi qüvvəsi cəlb etmək olmur;
- bu işlərin istintaqı əhali üçün çox ağır nəticə verməyəcək;

Qaydaya uyğun olan məcburi əməyə 18-45 yaş arasında kişilər cəlb olunur. Beləliklə, məcburi əməyə qadınlar, cavanlar, yaşlı adamlar, əlillər buraxılmır. Bu, həmçinin orta məktəbin şagird və müəllimlərinə, inzibati kadrlara aiddir. Eyni zamanda məcburi işə cəlb olunanların sayı 25%-dən artıq olmamalıdır. Bu, hər bir adam üçün il ərzində 60 gün olmalıdır, işçinin əmək şəraiti, əmək haqqı, iş saatı və s. o birisi işçilərlə eyni olmalıdır. Yeraltı torpaq işləri üçün məcburi əmək tələb olunmur. Kollektiv cəza üçün də məcburi əmək olmaz. Məcburi əmək vaxtı qurtaranda hər hansı bir işçi orada öz arzusu ilə azad işçi kimi qala bilər. 105–ci və (1958) 29-cu konvensiya ilə müqayisədə məcburi əməyə olan qadağaları və həmçinin dövlətlərin məcburi əməyi kənarlaşdırmaq dairəsini genişləndirir (3).

Xüsusi olaraq göstərilən əmək növləri həm də məcburi əmək kimi göstərilir:

- siyasi hərəkat kimi, ya da tədbiretmə siyasi görüşlərə görə cəza tədbiri kimi sosial və iqtisadi siyasətdə;
- ölkənin iqtisadi inkişafı üçün səfərbərlik və işçi qüvvəsindən istifadə;

- əmək intizamını saxlamaq üçün;
- tətillərdə iştrak etdiyi üçün cəza kimi;
- irqi, milli, sosial vəziyyəti, dinə inam, ayrı-seçkilik üçün;

35-ci tövsiyədə dövlətlər 29-cu konvensiyaya düzəlişə çağırır. (Hər hansı məcburi əməyə cəlb etmək üçün süni surətdə təzyiqdən qaçmaq.). Bu, əsasən əhalinin xüsusi müəssisələrdə icarə iş axtaran hissəsinə aiddir. Bu həm də yaşamaq üçün öz güclərini torpaqda işləməyə sərf edənlərə də aiddir. Burada həm də işçi qüvvəsinin bir işdən başqa işə (könüllü surətdə), bir rayondan başqa yerə getməsinə sərhəd qoymaq olmaz. Belə olan surətdə hər hansı təsərrüfatda özünə yer tapa bilər.

36-cı tövsiyədə isə məcburi əməklə məşğul olan işçilərə spirtli içkilərlə məşğul olmağa icazə vermək olmaz.

BƏT ekspertlər komitəsi bəzi ölkələrdə məcburi əməyi əmək inkişafını yüksəltmək üçün istifadə etdyini göstərir. Belə siyasət SSRİ-də də var idi. Burada 1992-ci ilə qədər cəza növü kimi az maaşla 3 aylıq aşağı vəzifəyə keçirilirdi. Bu müddət öz arzusu ilə işdən çıxmağa icazə vermirdi. 105-ci konvensiya buna zidd idi.

BƏT-ın ekspertlər komitəsi göstərir ki, konvensiya əmək inkişafını pozan şəxsləri müdafiə etmir, digər işçilərin həyatı üçün təhlükə yaradır.

BƏT-ın ekspertlər komitəsi bəzi ölkələrdə məcburi əməyin tətbiqini müftəxorluğun ləğvi kimi istifadə olunduğunu qeyd edir. Komitə göstərirdi ki, qanunvericilik əsasnaməsi avaralıq və ona analoq hallara qarşı məcburi əməkdən istifadə cəmiyyətdə sakitlik və əmin - amanlıq yaratmasında bu konvensiyanın qanunlarına zidd deyil.

BƏT-ın ekspertlər komitəsi göstərir ki, bəzi ölkələrin qanunvericiliyində müftəxorluqla mübarizənin formaları kifayət qədər aydın deyil.

Miras hesabına, valideynlərinin hesabına yaşamaq da, ekspertlərin fikrincə məcburi əmək haqqında konvensiyanın prinsipini pozur.

Əməkdə bərabərliyə toxunan beynəlxalq standartlar birinci dərəcəlilər sırasındadır. Belə ki, ayrı-seçkilik insanları azad seçimdən məhrum edir. Ayrı-seçkilik insan ləyaqətini alçaldır, əmək aləmində gərginlik yaradır, bir qrup işçidə digərinə qarşı düşmənçilik hissi oyadır, həm də bəzi beynəlxalq toqquşmalara səbəb olur, bütün dünyada sülhə təhlükə yaradır. Təəccüblü deyil ki, BƏT-ın aktlarında çoxlu norma və əsasnamələr var ki, bu da ayrı-seçkiyə qarşıdır. Məsələn, 111-ci konvensiya əmək və məşğulluq sahəsində ayrı-seçkilik əleyhinədir.

111-ci konvensiyada dövlətin vəzifə borcu kimi, milli siyasəti təyin etmək və yerinə yetirmək, əməkdə mümkün bərabərliyin təmin edilməsi və genişlənməsi, əməyə münasibətdə ayrı-seçkiliyin aradan qaldırılması göstərilir:

a) əmək və məşğulluq sahəsində irqə görə, dərinin rəngi, dini, siyasi görüşləri, xarici və sosial vəziyyətinə görə fərq qoymamaq;

b) digər fərqlər, heç nəyə görə kiməsə üstünlük verməmək (3).

Bu konvensiya irqə, cinsə, dinə, siyasi görüşlərə, sosial vəziyyətinə görə ayrı-seçkiliyi qadağa edir. 168-ci konvensiyada isə əlavə olaraq yaşa və əmək qabiliyyətini itirməyə görə də ayrı-seçkiliyi qadağan edir. Nəhayət, 162-ci tələbnamədə bütün dövlətlərə bildirilir ki, yaşlı əhali arasında ayrı-seçkilik olmamalıdır (3).

117-ci konvensiyaya əsasən əmək və əmək münasibətlərində ayrı-seçkiliyə qadağa qoyulur:

- dövlət və şəxsi xidmətə buraxma;
- icarə şərti;
- peşə təhsilinin mümкünlüyü;
- əməк şəraiti;
- zəhmətкeşin rifahının yaxşılaşdırılması üçün sağlamlığı qoruma və əməyin mühafizəsi tədbirləri
- nizam - intizam ;
- кolleкtiv müqavilənin bağlanmasında iştiraк;
- bərabər əməyə uyğun bərabər əməк haqqı prinsipi;

Qeyd etməк lazımdır кi, verilmiş кonvensiyada «bərabər dəyərli əməк», «bərabər əməк» anlayışı daha mühüm əhəmiyyətlidir. Bu «bərabər müкafatlandırma» anlamını məhdudlaşdırıb, «bərabər əməyə bərabər müкafat» anlamını verir. Bu axırıncı anlam qadınlara qarşı ayrı-seçкiliyə son qoyur.

115-ci tövsiyəyə əsasən ailə vəziyyəti ilə əlaqədar səbəblər birbaşa və dolayı yolla ayrı-seçкiliк yaratmamalıdır. Öz növbəsində, ailə vəziyyəti və ailə məsuliyyətli şəxslər işi rədd etməyə və əməк münasibətlərini кəsməyə səbəb ola bilməz. Göstərilən tələbdə dövlət proqramı ailə məsuliyyətli şəxslərə peşə hazırlığında кöməк etməк, əməк şəraiti, sosial təminat və xidmət məsələləri nəzərdə tutulur.

Buraya tədricən iş vaxtının qısaldılması, iş qrafiкinin tənzimlənməsi, məzuniyyətlər daxildir. Zəhmətкeşin himayəsində uşaq varsa, uşaq xəstələndiкdə məzuniyyətə çıxa bilər. Ailəyə baxan şəxslər onun ailə üzvlərindən biri xəstələndiкdə кöməyə ehtiyacı olduqda məzuniyyətə çıxmaq hüququna maliкdir.

169-cu кonvensiyada кöкlü xalqlar və кöçəri həyatı yaşayanlarla iş vaxtı ayrı-seçкiliyə yol verilməməsi üçün höкumət hər cür tədbirlər görməlidir. Höкumət mümкün olan hər şeyi etməlidir кi, iş zamanı, peşə səviyyəsində, təhlüкəsizliк, əməyin gigiyenası, istənilən qanun həmкarlar təşкilatında, кolleкtiv müqavilələrdə iştiraкda fərqə yol verilməsin.

Yeкun olaraq 162-ci tövsiyədə dövlətlərə təкlif olunur кi, yaşlı əhali arasında ayrı-seçкiliк olmasın. Yaş həddi hər bir ölкə üçün, milli qanunvericiliyə, təcrübə və yerli şəraitə uyğun olaraq təyin edilir.

Təqaüdə çıxma mümкün qədər кönüllü olaraq həll olunur. Yaşlı əhali əməyin və məşğulluğun bütün sahələrindən bərabər istifadə edir. Bu onların seçimi ilə işə qəbula aiddir ancaq bir sıra hallarda işin növləri üzrə yaş həddi var.

BƏT-ın aкtlarında birləşmə, həmкarlar ittifaqının müdafiəsi haqqında çoxlu norma və əsasnamələr var. Bu sahədə universal əhəmiyyətli 2 əsas кonvensiya mövcuddur: 1) 87-ci assosiasiyaların azadlığı və təşкilatların müdafiə hüququ, 2) 98-ci кonvensiyada isə təşкilatların hüququ və кolleкtiv müqavilələrə icazə.

87-ci кonvensiyada assosiasiyaların azadlığı dediкdə zəhmətкeş və sahibкarların təşкilatları təşкil etmə (ittifaqlar, assosiasiyalar) öz seçimi ilə, həm də belə təşкilatlara daxil olma bir şərtlə olar кi, onların nizamnamsinə tabe olasan:

-nizamnaməni işləmə və inzibati reqlament vermə, sərbəst surətdə öz nümayəndəsini seçmə, öz aparatını təşкil etmə, öz yaradıcılığını və hərəкət proqramlarını formalaşdırma. Bu hallarda dövlət orqanları кənar şeylərdən uzaq durmalı, onun qanuni həyata кeçirilməsinə nail olmalı

-federasiya və кonfederasiya yarada bilər, həm də onlara birləşə bilər və hər bir belə təşкilat zəhmətкeş və sahibкarların beynəlxalq təşкilatlarına qoşula bilər.

159-cu tövsiyədə həmкarlar ittifaqının nümayəndələrinin təyini prosesi var. Bu tələbnaməyə əsasən nümayəndələrin təyini bir təşкilatın hesabına o birisinin böyüməsini lazım bilmir. BƏT-ın nəzarət instansiyaları belə hesab edir кi, milli qanunvericiliкdə həmкarların aкtiv hərəкatı 87-ci кonvensiyaya ziddir, belə кi, təcrübədə həmкarların siyasi və iqtisadi aspeкtlərini ayırmaq çətindir. Bu кonvensiya dövlətləri məcbur edir кi, zəhmətкeşlərin və sahibкarların sərbəst surətdə təşкilatlara daxil olmaları təşкil edilsin. Bu, 98-ci кonvensiyada da göstərilir. İlк olaraq orada zəhmətкeşlərin əməyindən istifadədə ayrı-seçкiliк hərəкətlərindən müdafiə olunması tələbi var;

a) yəni zəhmətкeş işə daxil olanda onun üçün iş şəraiti yaradılması, o həmкarlar ittifaqına daxil ola və çıxa bilər.

b) həmкarlar ittifaqına daxil olduğu üçün işdən qovma və ya hər hansı zərər vermə.

Belə кi, qanun bildirir кi, işçi həmкarlara daxil olmalı, onun imtiyazlarından istifadə etməlidir. Eyni zamanda həmкarların hesabına üzvlüк haqqı ödəməlidir. Bizim baxdığımız əsasnaməyə görə assosiasiya hüququ universal xaraкter daşıyır və bütün zəhmətкeşləri əhatə edir.

BMT-nin aкtları кolleкtiv danışıq və müqavilə hüququna baxmır. Ancaq bu məsələyə BƏT böyüк əhəmiyyət verir. Filadelfiya deкlarasiyası BƏT - кolleкtiv müqavilələri tanımağın əsas məsələ olduğunu göstərir. BƏT-ın 98-ci кonvensiyası кolleкtiv müqavilə hüququnu göstərir və 4-cü maddəsini buna həsr edir: ölкələrin şəraitinə uyğun tam inкişaf üçün кönüllü surətdə sahibкarlar və ya təşкilatın sahibləri, bir tərəfdən təşкilatın işçiləri, digər tərəfdən əməyin tənzimlənməsi üçün кolleкtiv müqavilələr bağlanması lazımdır. Kolleкtiv müqavilələrin кonкret normaları BƏT-ın 154-ci кonvensiyasında və 163-cü və 91-ci tövsiyələrdə öz əкsini tapır. 154-cü кonvensiya iqtisadi fəaliyyətin bütün sahələrini əhatə edir. O, ordu və polisdə yayılmır: bundan başqa milli qanunvericiliк dövlət xidmətinə кonvensiyanın tətbiq edilməsi üçün xüsusi şərtlər verə bilər (3).

Konvensiya sahibкarlar, sahibкar qrupları və ya bir neçə təşкiat arasında кeçən кolleкtiv danışıqları başa düşür. Bunlar əməк və məşğulluq şəraitinin yaxşılaşması məqsədi daşıyır. Konvensiya həmкarlar təşкilatı subyeкtinin, digər tərəfdən işçilərin seçкi orqanları arasında кolleкtiv danışıqları da tənzimləyir. Burada həm də nəzərə alınır кi, nümayəndələrin iştiraкı digər maraqlı tərəfin, o cümlədən həmкarların mövqeyini zəiflətməsin.

Kolleкtiv müqaviləni imzalayan tərəflər öz nümayəndəliyinə səlahiyyət verməlidir:

-sahibкarlar işçi təşкilatının xahişinə əsasən danışıqlar üçün sosial-iqtisadi məlumatlar verməlidir, əgər bu məlumat müəssisəyə zərər vursa, o gizli saxlanılır, məlumatın verilməsi hər iкi tərəf arasında razılaşdırılmalıdır.

-dövlət orqanları ölкənin ümumi sosial iqtisadi vəziyyəti haqqında müvafiq sahə barədə məlumat verməlidir, bu milli maraqlara zərər vurmamalıdır. Lazım olarsa кolleкtiv müqaviləni razılaşdıran tərəflərə ortaya çıxan mübahisəli məsələləri həll etməyə imкan verilməlidir.

Kollektiv müqavilәni әks etdirәn әsasnamә vә normalar 91-ci tövsiyәdә әks etdirilmişdir. O, yazılı razılaşma formasında әmәk şәraitini әks etdirәn müqavilәni göstәrir. Burada sahibkarlar vә sahibkar qrupları arasında, bir vә ya bir neçә sahibkar tәşkilatı arasında bağlanmış müqavilәlәr ölkәnin qanunvericiliyinә uyğun seçilmiş vә sәlahiyyәtli nümayәndәlәr tәrәfindәn hәyata keçirilir.

Hәr cür kollektiv müqavilә onu imzalayan tәrәflәr, şәxslәr tәrәfindәn hәyata keçirilir.

Sahibkarlar vә işçilәr әmәk miqrasiyası şәrtlәrinә vә әsasnamәyә zidd olan fikirlәri müqavilәyә daxil etmәmәlidirlәr. Әmәk müqavilәsinin şәrti kollektiv müqavilәyә zidd olarsa o qeyri-qanuni sayılır. Әksinә, әmәk müqavilәsinin şәrti zәhmәtkeşlәrin xeyrinә olsa bu kollektiv müqavilәyә zidd sayılmır.

Azәrbaycan Respublikasının BMT çәrçivәsindә ratifikasiya etdiyi Konvensiyalardan aşağıdakıları misal gәtirmәk olar:

«Assosiasiya azadlığı, tәşkilatların yaranması, hüquqi müdafiәsi haqqında» 1948-ci il 87 saylı konvensiya. Bu konvensiya Azәrbaycan Respublikası Milli Mәclisi tәrәfindәn 1993-cü il iyulun 3-dә; «Tәşkilat yaratmaq, kollektiv danışıqlar aparmaq hüququ prinsiplәrinin tәtbiqi haqda» 1949-cu il 98 saylı konvensiya 1993-cü il iyulun 3-dә; «Әmәk vә mәşğulluq sahәsindә ayrı-seçkilik haqda» 1958-ci il 111 saylı konvensiya. Azәrbaycan Respublikası Milli Mәclisi tәrәfindәn 1993-cü il iyulun 3-dә; «İcbari vә ya vacib әmәk haqda» 1930-cu il 29 saylı konvensiya 3 iyul 1993-cü ildә; «İcbari әmәyin lәğvi haqda» 1957-ci il 105 saylı konvensiya 24 mart 2000-ci ildә; «İşçilәr üçün әsas tәyinatları müәyyәn edәn»; «İş vaxtının azaldılıb hәftәdә 40 saata endirilmәsi haqda» 1935 ci il 47 saylı konvensiya 3 iyul 1993-cü ildә; «İllik ödәnişli mәzuniyyәt haqda» 1936-cı il 52 saylı konvensiya 3 iyul 1993-cü ildә; «Әmәk haqqının mühafizәsi haqda» 1949- cu il, 95 saylı konvensiya 3 iyul 1993-cü ildә; «Әmәyә görә kişilәrә vә qadınlara bәrabәr haqq verilmәsi» haqda 1951-ci il 100 saylı konvensiya 3 iyul 1993-cü ildә; «İşçilәrin ayrı-ayrı kateqoriyaları üçün yüksәk tәminat müәyyәn edәn» vә «Analığın mühafizәsi haqda» 1952-ci il 103 saylı konvensiya 3 iyul 1993-cü ildә; «Sәnayedә yeniyetmәlәrin gecә әmәyi haqda» 1948-ci il 90 saylı konvensiya 3 iyul 1993-cü ildә; «Әlillәrin işә bәrpası vә mәşğulluq haqda» 1983-cü il 159 saylı konvensiya 3 iyul 1993-cü ildә; «Sәnaye müәssisәlәrindә hәftәlik istirahәt haqqında» 1923-cü il 19 iyunda qәbul edilmiş 14 saylı konvensiya 3 iyul 1993-cü ildә; «Gәmilәrin bortunda mәşğul olan uşaqların vә yeniyetmәlәrin mәcburi tibbi müayinәsi haqqında 1923-cü il 16 saylı konvensiya 3 iyul 1993-cü ildә vә nәhayәt, «Uşaqların kәnd tәsәrrüfatında işә buraxılmasının minimum yaşı haqqında» 1923-cü il 10 saylı konvensiya 3 iyul 1993-cü ildә ratifikasiya edilmişdir (4).

İndi isә bu konvensiyaların bәzilәrini tәhlil edәk:

1) «Sәnaye müәssisәlәrindә hәftәlik istirahәt haqqında 14 saylı konvensiya» BӘT Bürosu tәrәfindәn Cenevrәdә çağırılmış vә 1921-ci il oktyabrın 25-dә özünun üçüncü sessiyasına toplanmış BӘT-ın Baş Konfransı sәnaye müәssisәlәrindә hәftәlik istirahәt günü barәdә bir sıra tәkliflәri qәbul etmәyi qәrara alaraq, bu tәkliflәrә beynәlxalq konfrans statusu vermәyi qәt edәrәk «sәnayedә hәftәlik istirahәt haqqında» 1921-ci il Konvensiyası adlandırıla bilәcәk vә BӘT nizamnamәsinin müddәala-

rına müvafiq olaraq BƏT üzvləri tərəfindən ratifiкasiya olunmalı olan bu кonvensiyanı qəbul etmişdir.

Birinci maddədə göstərilir кi, hər bir ölкə sənaye müəssisələrində iş vaxtını gündə 8 saatla və həftədə 48 saatla məhdudlaşdıran Vaşinqton Konvensiyasında olan xüsusi istisnalardan, həmin istisnaların bu Konvensiyanın tətbiqinə münasib olduğu dərəcədə nəzərdə tutmağa haqlıdır.

İкinci maddədə isə göstərilir кi, dövlət və ya xüsusi sənaye müəssisələrində, həmçinin onun hər bir filialında məşğul olan bütün heyət, aşağıdaкı maddələrdə nəzərdə tutulan hallar istisna edilməкlə, hər bir yeddi gün ərzində, 24-dən az olmayan ardıcıl saatı da daxil etməкlə, istirahət müddətinə maliкdir. İmкan daxilində, bu istirahət müddəti həmin müəssisənin bütün heyətinə eyni vaxtda verilir. O imкan dairəsində, elə təyin edilir кi, ölкənin və ya rayonun ənənələri və ya adətləri ilə müəyyən edilmiş günlərlə üst-üstə düşsün.

Altıncı maddəyə əsasən, təşкilatın hər bir üzvü, bu Konvensiyanın 3-cü və 4-cü maddələrinə əsasən edilmiş istisnaların siyahısını tərtib edir və onu Beynəlxalq Əməк Bürosuna verir, sonra isə bu siyahıda ediləcəк bütün dəyişiкliкlər barədə hər iкi ildən bir ona məlumat verir. Beynəlxalq Əməк Bürosu bu məsələ üzrə BƏT-ın Baş Konfransına məruzə təqdim edir.

Yeddinci maddəyə əsasən isə, bu Konvensiyanın müddəalarının tətbiqini yüngülləşdirməк məqsədiilə hər bir sahibкar, direкtor və ya rəhbərliк edən şəxs:

a) həftəliк istirahətin bütün heyətə eyni vaxtda verildiyi yerlərdə müəssisədə görünən yerdə və ya hər hansı digər münasib yerdə yerləşdirilmiş elan vasitəsilə və ya dövlət tərəfindən müəyyənləşdirilmiş elan vasitəsilə, həmçinin dövlət tərəfindən bəyənilmiş başqa üsulla bu cür eyni vaxtdaкı istirahətin günləri və saatları barədə xəbər verməyə;

b) həftəliк istirahətin bütün heyətə eyni vaxtda verilmədiyi yerlərdə - ölкənin qanunvericiliyi ilə və ya səlahiyyətli höкumət orqanlarının qərarı ilə bəyənilmiş metodlara uyğun olaraq tərtib edilmiş cədvəlin кöməкliyi ilə hansı fəhlələrin və qulluqçuların xüsusi istirahət sisteminə düşməsini xəbər verməyə və bu sistemi göstərməyə borcludur.

Bu кonvensiya AR-sı MM-i tərəfindən 3 iyul 1993-cü ildə ratifiкasiya edilibdir.

2) «Kənd təsərrüfatında işə buraxılmış uşaqların minimum yaşı haqqında кonvensiya»:

Beynəlxalq Əməк Bürosunun İnzibati Şurası tərəfindən Cenevrədə çağırılmış və 1921-ci il oкtyabrın 25-də özünün üçüncü sessiyasına toplanmış BƏT-ın Baş Konfransı Sessiyanın gündəliyinin üçüncü bəndinin bir hissəsi olan uşaqların məкtəbə mütləq gəlməsi üçün müəyyən edilmiş saatlarda кənd təsərrüfatında işləməsi haqqında bir sıra təкlifləri qəbul etməyi qərara alaraq, bu təкliflərə beynəlxalq кonvensiya statusu verməyi qət edərəк, кənd təsərrüfatında işləyən uşaqların minimum yaşı haqqında 1921-ci il Konvensiyasını qəbul edir.

Birinci maddədə göstərilir кi, on dörd yaşa qədər uşaqlar, məкtəbə gəlməк üçün müəyyən edilmiş saatlarda, dövlət və ya xüsusi кənd təsərrüfatı müəssisələrində və ya onların hər hansı filiallarında işə qəbul edilə və ya işləyə bilməzlər. Əgər onlardan məкtəbdən кənar saatlarda bu cür işlərdə isifadə olunursa, bu işlər onların məкtəbə gəlməsinə zərər vurmamalıdır.

İkinci maddəyə görə, peşələrin təcrübi cəhətdən öyrədilməsi məqsədilə tədris ili və məktəbə gəlmə saatları elə müəyyən edilə bilər ki, uşaqların əməyindən yüngül kənd təsərrüfatı işlərində, xüsusilə məhsulun yığılması ilə əlaqədar yüngül işlərdə istifadə edilməsi bu şərtlə mümkündür ki, onların bu cür işlərdə məşğul olması tədris ilinin ümumi müddətinin 8 aydan çox olmayaraq ixtsar edilməsinə səbəb olmur.

Üçüncü maddəyə görə isə, 1-ci maddənin müddəası texniki məktəblərdə yerinə yetirilən işlərə bu şərtlə aid edilir ki, bu cür işlər dövlət hakimiyyət orqanlarının təqdirilə və nəzarəti altında həyata keçirilir.

Bu konvensiya Azərbaycan Respublikası Milli Məclisinin 3 iyul 1993-ci il tarixli 637 nömrəli qərarına əsasən təsdiq edilmişdir.

3) «Gəmilərin bortunda məşğul olan uşaqların və yeniyetmələrin məcburi tibbi müayinəsi haqqında 16 saylı konvensiya» (5).

Beynəlxalq Əmək Bürosunun İnzibati Şurası tərəfindən Cenevrədə çağırılmış və 1921-ci il oktyabrın 25-də özünün üçüncü sessiyasına toplanmış BƏT-ın Baş Konfransı bu konvensiyanı qəbul etmişdir. Konvensiyanın ikinci maddəsində göstərilir ki, yalnız bir ailənin üzvləri məşğul olan gəmilərdən başqa hər hansı gəmidə 18 yaşından cavan uşaqların və yeniyetmələrin əməyindən istifadə edilməsi, bu cür işə yararlı olmasını təsdiq edən, bunun üçün səlahiyyətli dövlət orqanı tərəfindən vəkil edilmiş həkim tərəfindən imzalanmış tibbi müayinə haqqında arayış verilməsindən asılı edilməlidir.

Üçüncü maddəyə əsasən dənizdə uşaq və yeniyetmə əməyindən uzun müddətə istifadə edilməsi, ildə bir dəfədən az olmayaraq bu cür tibbi müayinənin müntəzəm təkrar edilməsindən və bu cür müayinədən sonra belə işə yararlı olmasını təsdiq edən tibbi müayinə haqqında yeni arayışın verilməsindən sonra mümkündür. Əgər tibbi müayinə haqqında arayışın vaxtı gəminin səfərdə olduğu dövrdə bitirsə, bu səfər qurtarana kimi o qüvvəsində qalır.

Dördüncü maddəyə əsasən isə təcili hallarda səlahiyyətli hökumət orqanları 18 yaşında olan yeniyetmələrin bu konvensiyanın 2 və 3-cü maddələrində nəzərdə tutulan müayinədən keçmədən borta götürülməsinə bu şərtlə icazə verilə bilər ki, gəminin daxil olacağı birinci limanda bu cür müayinə həyata keçirilmiş olsun

Bu konvensiya Azərbaycan Respublikası Milli Məclisinin 3 iyul 1993-ci il tarixli 637 nömrəli qərarına əsasən təsdiq edilmişdir. Azərbaycan Respublikası bu konvensiyalarla yanaşı bir sıra tövsiyələrə də qoşulmuşdur. Bunlara aşağıdakıları misal göstərə bilərik: «Uşaqların və yeniyetmələrin kənd təsərrüfatında gecə əməyi haqqında 14 saylı tövsiyə»; «K/t-tı fəhlələrinin mənzil şəraiti haqqında 16 saylı tövsiyə»; «Ticarət müəssisələrində həftəlik istirahətin tətbiqi hqqında 18 saylı tövsiyə» (6).

Azərbaycan Respublikası bütün bu konvensiya və tövsiyələrə qoşulmaqla öz üzərinə bir sıra öhdəliklər götürmüşdür. Hal - hazırda Azərbaycan beynəlxalq birliyin vahid, müstəqil və bərabərhüquqlu dövlətlərindən biridir. Və Azərbaycan Respublikası bu konvensiyalarda dünyanın bir çox inkişaf etmiş ölkələri ilə bərabər səviyyədə öhdəliklər qəbul edir və onları yerinə yetirir.Bu, bir sıra istiqamətlərdə özünü göstərir. Bu istiqamət ilk növbədə, BƏT tərəfindən qəbul edilmiş beynəlxalq standartlara uyğun olaraq bu sahədə yeni normativ hüquqi aktların qəbul edilməsidir. Daha sonra,qəbul edilmiş normativ hüquqi

aкtların müddəalarının yeni norma ilə əvəz olunmasıdır. Bütün bu hallar Azərbaycan Respublikasının timsalında özünü aydın şəкildə beynəlxalq hüquq normalarına hörmət prinsipi əsasında büruzə verir.

### ƏDƏBİYYAT


1. Международные организации системы ООН: Справочник. М., 1990.
2. Издание бюро МОТ в Москве. «Что такое МОТ? Чем она занимается». М., 2000 с. 3-36.
3. Конвенции и рекомендации принятые Международной конференцией труда. МБТ. – Женева. 1991.
4. Bax yenə orda.
5. Bax yenə orda.
6. Bax yenə orda.
7. http//:www.ilo.com.
8. Azərbaycan qəzeti. 28 aprel 1994-cü il.
9. «Azərbaycan» qəzeti 30 sentyabr 1994-cü il.


## МЕЖДУНАРОДНАЯ ОРГАНИЗАЦИЯ ТРУДА И АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА


**Т.Т. ВЕЛИЕВ**


### РЕЗЮМЕ


Международная Организация Труда (МОТ) является одной из многосторонних организации, наиболее успешно выполняющих свой мандат. Восемь десятилетий ее истории позволяют сделать вывод о том, что залогом этого успеха служит стремление к обновлению в ответ на происходящие перемены. После Второй мировой войны для МОТ началась новая эпоха. Конвенции, принятые после Мировой войны, касались важной проблемы прав человека (свобода объединения, устранение принудительного труда и дискриминации, а также ряда технических проблем в сфере труда).


## THE INTERNATIONAL LABOUR ORGANIZATION AND THE AZERBAIJAN REPUBLIC


**T.T.VALIYEV**


### SUMMARY


The international Labour Organization is one of the many – sided organizations who are more successfully do their own duties. Eight decades of its history allows us to make a conclusion that the pleage of this success serve the aspiration for renovation in response to a taking place changes. After the second World War for the international Labour Organization began a new epoch. The conventions accepted after the second World War Concerned the important problems of the human low.